# GDU-da Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirilmişdir



Gəncə Dövlət Universitetində (GDU) 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirilmişdir.

Dövlət himni səsləndirildikdən sonra Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan mərd oğullarımızın əziz xatirəsi birdəqiqəlik sükutla yad edilmiş, Ulu Öndərin zəngin və çoxşaxəli fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilmişdir.

Tədbiri giriş sözü ilə universitetin rektoru Yusif Yusibov açaraq Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış Milli Qurtuluş Gününün əhəmiyyətindən və Ulu Öndərin xalqımız, dövlətçiliyimiz qarşısındakı tarixi xidmətlərindən danışmışdır. Qeyd etmişdir ki, Heydər Əliyev 1993-cü il iyunun 15-də hakimiyyətə qayıdışı ilə Azərbaycan tarixində yeni bir səhifə açdı. Ulu Öndərin xilaskarlıq missiyası ölkəni məhv olmaqdan, parçalanmaqdan xilas etdi. Azərbaycanda sabitlik yarandı, xalqın dövlətə inamı möhkəmləndi. Məhz Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan qısa müddətdə sürətli inkişaf yoluna qədəm qoydu.

Tədbirdə universitetin Humanitar məsələlər üzrə prorektoru, dosent Gülsüm Fətəliyevanın "Xalqın və dövlətin qurtuluş günü", Ümumi tarix kafedrasının müdiri Etibar Musayevin "Ulu Öndər Heydər Əliyevin şah əsəri - Müstəqil Azərbaycan", Azərbaycan və dünya ədəbiyyatı kafedrasının müdiri Səba Namazovanın "Tariximizin dönüş anı", Sosial fənlər kafedrasının baş müəllimi Üzeyir Balakişiyevin "Ulu Öndər Heydər Əliyevin millli dövlətçilik konsepsiyası", Azərbaycan tarixi kafedrasının baş müəllimi Eldar Mehdiyevin "Milli qurtuluş hərəkatının tarixi-siyasi əhəmiyyəti" mövzularında məruzələri dinlənilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 17 iyun.- S.13.